# ƏMİR TEYMURUN
## VƏSİYYƏTLƏRİ

Tərcüməçi:
Məti Osmanoğlu

qanun nəşriyyatı

“Əmir Teymurun vəsiyyətləri” dünya tarixində böyük cahangirlərdən biri kimi şöhrət qazanmış Əmir Teymurun dövlət quruculuğuna və hərb sənətinə dair mülahizələrini, Xeyir və Şər, Ədalət və Vicdan, Azadlıq və Zəfər haqqında təsəvvürlərini əks etdirir. “Əmir Teymurun vəsiyyətləri” indiyədək dünyanın bir çox dillərində nəşr edilib. Əsərin azərbaycancaya tərcüməsi oxucularda Əmir Teymurun şəxsiyyəti, tarixdəki mövqeyi, hərbi yürüşləri haqqında obyektiv fikir yaratmağa kömək edəcək.

**ƏMİR TEYMURUN VƏSİYYƏTLƏRİ**

Bakı, Qanun Nəşriyyatı, 2024, 152 səh.

Janr: non-fiction/tarix
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 06.12.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Məti Osmanoğlu |
| Texniki redaktor: | Aydın Səlimli |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |
| | |
| Çapçı: | Vasif Kərimov |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-863-3

© Qanun Nəşriyyatı, 2018; 2024
© "Şark Yulduzu" jurnalı, №8, 1989

*Bismillahir Rəhmanir Rəhim!*

# BİRİNCİ MƏQALƏ

*Özgə məmləkətləri zəbt eləmək, onları idarə eləmək, düşməni tora salmaq, əleyhimə çıxanları, könüllərini ovlayaraq dosta çevirmək, dostlarım və düşmənlərimlə güzəşt, barışıq, razılıq yaratmaq barəsində tədbirlər və məşvərətlər.*

Pirim Zeynəddin Əbubəkr Taibadi[1] mənə yazmışdır ki, "Əbülmənsur[2] Teymur, səltənət işlərində dörd şeyə riayət eləyin: 1) gənəşik, 2) məşvərət və məsləhət, 3) ayıq-sayıqlıq, 4) ehtiyatlılıq. Gənəşiksiz və məşvərətsiz səltənəti gördüyü işlərin, söylədiyi sözlərin hamısı yalan olan cahil adama yaraşdırmaq olar: onun söylədiyi sözlər, tutduğu əməllər başına peşmançılıq və qayğı-qarğaşa salacaq. Belə olduğu halda, səltənəti idarə eləyərkən işinizi məşvərətlə, məsləhətlə, tədbirlə yeridin ki, qayğıya-qarğaşaya qatlaşmayasınız, peşman olmaya-

[1] Zeynəddin Əbubəkr Taibadi – məşhur şeyx, Əmir Teymurun məsləhətçilərindən. 1389-cu ildə vəfat eləyib.
[2] Əbülmənsur – müzəffər, qələbə qazanan. Əmir Teymurun təxəllüslərindən.

sınız. Bunu da bilməyiniz gərəkdir ki, səltənət işlərinin bir qismi səbir və həvəs ilə hasil olursa, başqa bir qismi isə bildiyini bilməzliyə, gördüyünü görməzliyə vurmaqla başa gəlir. Sözün qısası, yerinə yetirilməsi zəruri olan tədbirləri müəyyənləşdirəndən və dua verəndən sonra təkid edilməsən ki, qətiyyət, səbir, həvəslə, cansağlığı, ayıq-sayıqlıq, ehtiyatlılıq və şücaət ilə bütün işlərini həyata keçirə biləsən. Vəssalam”.

Məktubda yazılmış sözlər isə səltənət məsələlərində mənə ən doğru yol göstərən bələdçi idi. Buna görə dövlət işlərinin doqquz payının gənəşiklə, tədbirlə, məşvərətlə, bir payının isə qılıncla həll olunduğunu anladım. Aqil adamlar deyiblər ki, öz yerində tökülən tədbirlərlə saya-hesaba gəlməyən əsgərin qılıncı batmayan hər hansı məmləkətin qapılarını açmaq və saysız-hesabsız qoşunu məğlub eləmək mümkündür. Gözüm gördüklərindən ağlım kəsib ki, səriştəli, mərd, şücaətli, qətiyyətli, tədbirli, təcrübəli bir adam tədbirsiz, candan sağlam minlərlə adama dəyər. Çünki təcrübəli adam min adamı işə buyura bilər. Mən başıma gələnlərdən onu da sınayıb görmüşəm ki, düşmən qoşununu məğlub eləmək əsgərin çoxluğundan, düşmənə yenilmək isə sayın azlığından asılı deyil. Əlbəttə, qalib gəlmək tanrının köməyinin, bəndənin tədbirinin nəticəsidir. Məsələn, mən iki yüz qırx üç adamla məsləhətləşib tədbir tökərək Qarşı qalasının üstünə yeridim. Əmir Musa və Məlik bahadır on iki min atlı əsgər ilə qalaya və qalanın dörd dövrəsinə keşik çəkməkdə idilər. Tanrı köməyini əsirgəmədi, öz tökdüyüm düzgün tədbirlər sayəsində Qarşı qalasını ələ keçirdim. Sonra Əmir Musa və Məlik bahadır on iki min atlı əsgər ilə gəlib məni qalada mühasirəyə

saldılar. Mən tanrının köməyinə və rəhminə sığınaraq qaladan çıxdım, tədbir töküb ehtiyatı əldən verməyərək düşmənlə bir neçə dəfə vuruşdum və axırda başımdakı iki yüz qırx üç igidimlə birlikdə düşmənin on iki min atlı əsgərini məğlubiyyətə uğratdım, onları bir neçə fərsəng məsafəyə qədər qovdum.

Mən təcrübədən onu da keçirmişəm ki, gənəşik adamları uzağı düşünən, dolğun ağıllı, dərin düşüncəli, həssas olmalıdırlar. İşin nəticəsini alın yazısının ayağına yazmaqla pərdələmək mümkün olsa da, peyğəmbərimiz Məhəmmədin (ona tanrının mərhəmətləri və salamları olsun) buyurduğu kimi, hər işi məsləhətlə gördüm. Hər dəfə məsləhətçilər cəm olub, məclis başlanarkən yaxşıdan-yamandan, xeyirdən-ziyandan, qarşımızda duran vəzifələri yerinə yetirib-yetirə bilməyəcəyimizdən söz açıb gənəşiyə toplaşanların ağızlarını arayardım. Onların məsləhətlərini dinləyə-dinləyə hərtərəfli götür-qoy eləyər, ürəyimdə xeyrini-ziyanını hesablayardım. Eyni zamanda, təklif edilən işin zərərli tərəflərinə daha artıq diqqət yetirərdim. Əgər təklif olunan işlərdən biri o birindən ikiqat zərərli olardısa və həmin zərərin ikisindən də birlikdə qurtarmağın çarəsi yox idisə, onda zərəri az olan işin arxasınca gedirəm. Buna bir misal. Dəşdi Çeta[1] əmirləri Tuğluq Teymur xana[2] qarşı üsyan qaldırmışdılar. Tuğluq Teymur xan bu məsələ ilə bağlı məndən məsləhət istədi. Ona məsləhətim belə oldu ki, əgər düşmənini darmadağın eləməyə qoşun göndərmiş olsa,

---

[1] Dəşti Çeta (Çeta çölü) – Cığatay ulusu iki yerə bölünəndən sonra Yeddisu, Cu vahəsi və Şərqi Türküstanı əhatə eləyən ərazi (Cığatay ulusunun Şərq bölgəsi).

[2] Tuğluq Teymurxan – Cığatay ulusunun hökmdarlarından biri (1359-1370).

bundan ikiqat zərər, düşmən üstünə özü getsə, birqat zərər gözlənilir. Mənim məsləhətimə baxıb üsyançıların üstünə özü getdi və bütün işləri mənim dediyim kimi hasilə yetdi.

İşlərimin hamısını məsləhətlə görərdim, işimi hasilə gətirmək üçün tədbir tökərdim. Bir işə başlamazdan əvvəl əl saxlayıb həmin işi nə cür qurtarmağın yollarını götür-qoy eləyərdim. Hər bir məsələdə düzgün tədbir, qətiyyət, hövsələ-dözüm göstərərək ehtiyatla, uzağa baxa-baxa, işin gerisini fikirləşə-fikirləşə hərəkət eləyərdim.

Təcrübədən onu da keçirmişəm ki, məşvərət adamlarının ağızlarının bir, sözlərinin bütöv olması, işdə inadcıl olmaları vacibdir. Görmək istədikləri işi əllərindən yarımçıq qoymamalıdırlar. Əgər bir işi görməyə söz veriblərsə, həmin işin həndəvərinə də yaxın düşməməlidirlər.

Mənə təcrübədən məlumdur ki, gənəşik (məşvərət) iki cür olur: biri dilucu deyilir, ikincisi ürəkdən gəlir. Dilucu verilən məsləhətlərə qulaq asardım. Ürəkdən verilən (səmimi) məsləhəti isə qəlbimin qulaqlarından asardım və ona ürəyimin başında yer verərdim.

Əgər düşmən üstünə qoşun yeritmək istəyirdimsə, ortaya müharibə və barış (sülh) barəsində söhbət atardım, əmirlərimin müharibəyə, yaxud barışığa meyl etdiklərini müəyyənləşdirməyə çalışardım. Əgər barışıq haqqında söhbət açsaydılar, müharibənin nəfini və faydasını barışıqdan gəlməli olan itkilərlə tutuşdurardım. Bunlardan hansı birinin faydası daha artıq olacaqdısa, onun arxasınca gedərdim. Hərbi qulluqçuların marağını iki yerə parçalaya biləcək məsləhətlərə qulaq asmaqdan ehtiyatlanardım. Durumsuz (qeyri-sabit), ikibaşlı söhbət eləyən adamlara qulaq asmazdım. Hansı adam ağlabatan bir məsələ

haqqında yana-yana danışardısa, ona rəğbətlə qulaq asardım. Hər adamdan söz çəkər, məsləhət umardım. Lakin mənə deyilən hər sözün yaxşı və yaman tərəfləri haqqında düşünüb-daşınanadan sonra düzgün və daha savab sözləri seçib qəbul eləyərdim.

Məsələn, Çingiz xanın nəvəsi Tuğluq Teymur[1] Maveraünnəhr məmləkətini ələ keçirmək məqsədi ilə qoşun çəkib, Xocənd suyundan[2] adlayıb keçərkən mənim, Əmir Hacı Bərlasın və Əmir Bəyazid Cəlayirinin adımıza yarlıq[3] göndərərək tələb eləmişdi ki, onun hüzuruna gələk. Əmir Hacı Bərlasla Əmir Bəyazid məndən məsləhət istədilər ki, öz uluslarından keçib Xorasana getsinlər, yoxsa Tuğluq Teymur xanın hüzuruna yollansınlar? Mən onlara belə yol göstərdim: Tuğluq Teymur xanın hüzuruna getsəniz, iki fayda, bir ziyan gözlənilir, Xorasan tərəfə keçib getməyin isə iki ziyan, bir faydası vardır. Onlar mənim məsləhətimə əhəmiyyət verməyərək öz yurdlarının içindən keçib Xorasan tərəfə yollandılar. Mən də çaş-baş qaldım, bilmədim Xorasana getsəm yaxşıdır, yoxsa Tuğluq Teymur xanın yanına. İki fikir arasında qaldım. Vəziyyəti belə görəndə pirimə məktub göndərib ondan məsləhət istədim. O, bu məzmunda cavab yazıb mənə yolladı: "Dördüncü xəlifə Həzrəti Əli ibn Əbu Talibdən (ona tanrının kərəmi və mərhəməti olsun) bir adam soruşub ki, göylər – kaman, Yer üzü kaman kirişi, olaylar, bəlalar, müsibətlər ox, insanlar da həmin yay-oxa hədəf olsalar, oxu atan isə Al-

---

[1] Tuğluq Teymur xan Çingiz xanın nəvəsi deyil, ümumiyyətlə, törəmələrindən biri hesab olunur.

[2] Xocənd  suyu – Sırdərya çayının orta əsrlərdəki ad.

[3] Yarlıq – fərman.

lah-taala olsa (onun qüdrəti daha da ulu olsun) adamlar hansı tərəfə qaçmalıdırlar? Xəlifə cavab verir ki, adamlar tanrının qənşərinə qaçmalıdırlar. Buna oxşar olaraq sən də Tuğluq Teymur xanın qarşısına yürüş elə və bu yay-oxunu çəkib əlindən al". Bu cavab mənə çatan kimi könlüm qanad açdı və Tuğluq Teymur xanın qabağına getmək qərarına gəldim.

Hansı bir işə başlamaq istəyərkən məşvərətdən sonra Qurandan fal açardım və Quranın buyurduğu kimi hərəkət eləyərdim. Tuğluq Teymur xanın yanına getməzdən əvvəl Quranı vərəqləyib fal açanda "Surəyi-Yusif əleyhissəlam" çıxdı və mən Qurani-məcidin hökmünə əməl elədim.

## Tuğluq Teymur xanla görüşəndən sonra könlümə gələn birinci gənəşik

Tuğluq Teymur xanın Bekçik hacı bəy erkintlərini[1] və Uluğ Tuqteymur kereitlərini Çete çölünün başqa əmirləri ilə üç qoşuna ayıraraq Mavəraünnəhr məmləkətini talan-tarac eləməyə göndərməsi, həmin üç qoşunun gəlib Xuzər adlanan yerdə dayanması haqqında xəbər qulağıma çatandan sonra, xanın yanına yollanmamış acgöz əmirləri dünya malı ilə aldadaraq Mavəraünnəhr məmləkətini qırğından, qarətdən qurtarmaq üçün görüşü təxirə salmaq qərarına gəldim. Adlarını çəkdiyim əmirlərlə görüşərkən onları, elə bil, zəhmim basmışdır, mənə böyük hörmət göstərdilər, məni yaxşıca ağırladılar. Onların ürəkləri də gözləri

[1] Erkint, kereit – türk-moğol qəbilələrindən.

kimi dar olduğu üçün sovqat-sovrun[1] olaraq verdiyim hər dürlü nadir mallar gözlərini tutdu və Mavəraünnəhri ələ keçirib talan-tarac eləməkdən əllərini saxladılar. Sonra həqiqətən də gedib Tuğluq Teymur xanla görüşdüm. Xan gəlişimi xeyirliyə yozaraq məndən səltənət işlərinə dair məsləhət istədi. Verdiyim məsləhətləri doğru sayaraq hamısını qəbul elədi.

Bu əsnada xana xəbər gətirdilər ki, yuxarıda adları çəkilən üç qoşunun əmirləri yerli əhalidən hədiyyələr alaraq onlarla aranı sazlayıblar. Xan dərhal malları əmirlərin əlindən alıb qaytarmaq üçün adam təyin elədi və əmirlərə bundan sonra Mavəraünnəhrə ayaq basmağı qadağan elədi. Onları vəzifələrindən götürdü. Yerlərinə Hacı Murad şah Yəsavurini[2] təyin elədi.

Əmirlər bundan xəbər tutan kimi düşmənçilik bayrağı qaldırıb öz yurdlarına döndülər.

Yolda Kənac xanın divanbəyisi və əmiri olan Oğlan xoca ilə görüşə bildilər. Onu da özlərinə qoşaraq Dəşti Çete tərəfə üz qoydular.

Yenə həmin vaxtda Tuğluq Teymur xanın Dəşti Qıpçaqdakı əmirlərinin də üsyan qaldırmaları haqqında xəbər gəldi. Xan bundan təşvişə düşdü, mənimlə məsləhətləşəndən sonra Çete çölü tərəfə üz qoydu. Mavəraünnəhri isə mənim ixtiyarımda saxladı, bu barədə yarlıq (fərman) və əhdnamə yazıb verdi, əmir Qaraçaq noyanın[3]

---

[1] Sovrun – padşahlarla, əmirlərlə, xanlarla, ümumən yüksək təbəqədən olan adamlarla görüşdə təqdim olunan hədiyyə.

[2] Yəsavuri – moğol qəbilələrindən birinin adı.

[3] Qaraçaq noyan – Çingiz xanın nüfuzlu əmirlərindən; Əmir Teymurun səkkizinci babası. Noyon Çingiz xanın nəslindən olan şahzadə.